## Pirallahı

Çilovdan yazıram yazdıqlarımı,
Helikopterlə uçub gəlirəm
həftədə bir kərə
Çilov adasından Pirallahıya,
ordan şəhərə
və...
Və
Hər gün qulaqlarımda helikopter səsi...
Cənab markes,
Çilovdan yazıram yazdıqlarımı
Üç ildi əlimə qələm almıram,
üç ildi yazmıram bir misra belə
İşimi dəyişmişəm - il yarım tamam oldu,
sağlığını görüm...
Qadınım öldü...

torpaqsız bir bölgənin
su sərhəddi başlar Pirallahıda.
adambaşına hər yan sudu
Torpaq qurtarıb burda.
Boran buruna durub,
xəzri-gilavar
dənizdə qağayılar
sahildə arabalar.
Darıxır adamlar.
Burnunun ucu
Göynüyür hərdən
Taxıl zəmisindən,
zeytun bağından yana.

Dolandırıb başına
qayaları, sədləri,
göyləri şərab kimi çəkib başına,
Xəzər
içib sərxoş olunca
hələ də içində su yanğısı var.
Adam ovuna çıxıbdı sular,
bu gün dənizdə qasırğa var.
Dalğa-dalğa şişir bətni,
torpağa yerikləyir hamilə dəniz,
qumların üstünə qalxır ləpələr,
ölü balıq kimi ağarır
qırmızı qərənfillər.

Dənizin ortasında
Tonqalda ay yanırdı.
Ulduzları qarışırdı
Dalğaların fəryadı.

Odnan sü arasında
Nağıllaşırdı ölüm.
Ölüm yalan olmuşdu
Dənizin ortasında.
Ümidin qanadları
Yanırdı, qovrulurdu,
Balıqlar gendən baxıb
Üzülürdü dərində,

saatlar dəqiqələr
donmuşdu suda.

O ki var yanırdı dəmir adına,
yanırdı dəmirin külçədanları,
polad əyilirdi,
əriyirdi Mendeleyevin qələviləri.
əriyirdi alminum,
əriyirdi mis,
pırtlaşıq düşürdü
buruq-buruq dəmir saçlar
sonunda göy qurşağı cilvəli,
rəng-rəng,
kösöv-kösöv,
yuxu görürdü qırmızı qərənfillər.

Burnu da qanamadı
Sakit-sakit ləpələndi dalğalar,
Bir dəqiqəlik sükutla
Sayğı duruşunda qaldı qayalar...

Gəmilərin fit səsi
hürkütmədi quşları,
yuyuldu suitinin
qum üstündə işləri.

20 yanvar gəmisi -
göyərtəsi nəmli
Yanlarından sallanan elastik rezin şinlər.
Əsir dəniz rüzgarı
Havayla dolur səmt bayraqları

Mamont ağacıdı qara buludlar,
Açılıb göyləri boşaltdı gecə.
Açdı qucağını tüstülü damlar
Dənizə yağışlar yağdı bu gecə.

itbata düşdü göyün şanısı,
gözü işıldadı gölməçələrin,
qamaşdı işıqdan sınıq şüşəsi,
rəngli faraların piltəsi düşdü.

Kürt düşdü quşların quş ürəkləri,
başını bürüdü soyuqqanlılar.

Göylərin təbili susmadı, yenə
Bulud çəlləklərin şəffaf suyunda.
İslanmaq həvəsi yoxdu Xəzərin.
...Yağdı səhərəcən, yağdı bu gecə...

Dənizin dibi də aydın görünməz,
Nə balıqqulağı, nə də süngərlər.
Gözü ayağının altını görmür,
Uçan təyyarələr, üzən gəmilər.

Burada adamlar ...qaraqabaqdı,
Bir üzü ağ olur, bir üzü qara.
Adamın gülməyi gəlir, hərdənbir,
Sifəti qarsımış bu adamlara.

Hərdən bu adamlar baş girliyirlər,
bir az oxşuyurlar qara buluda.
Ağına, bozuna baxmır nədənsə
Bir ayağı suda, biri quruda.

Tarlası yox, zəmisi yox,
Qurdu yox, quşu yox,
Bir ağız gülləyə tuş olar
"Durna dimdiyi" adlanın yerdə
Vəhşi ördəyi, qazı...

Dənizin kölgəsi düşər adaya,
buludu ayrıdı, günəşi ayrı,
Qabığı partlamıq nardı göyüzü
Xoruzun banı yox səhərlərində,
İlbizi çanaqsız, ziyili qansız,
İtləri zarıncı, pişiyi mavrıdı, Adanın...

Yazı iydə ətirlidi, payızı yovşan,
Qışı qar-çovğunlu səsli, haraylı,
Gündüzü mələklər dilli, ağızlı,
Gecəsi Allahdan xəbərsiz, fələk.

Dalğalar yalquzaq kimidi burda,
elə səssiz-səssiz insan ovunda.
dənizin dəlilik vaxtına düşsə,
...sonu qərənfildi sahil boyunda.

Ya adsız məzardı yol kənarında
Suya təslim olub qumsallı torpaq
Üşüyür, isinir

Boy verir bətnindən
dəvətikanı çıxır yerin üstünə.

Qapqara örtüklü yollar uzanır,
gecənin adamsız izinə düşür.
Telsiz dirəklərin lampa işığı
Zeytun bağlarının gözünə düşür.

Allahın altında...
Bir axşam gedib gözünlə görəsən...
Biləsən, Çilovdan nələr danışır
yerli adamlar...

- dənizində adam batır
- nöyüt düşüb girovuna
- toruna yosun dolaşır
- xərçənginin rəngi çıxıb tilovuna.

Allahından dönüb,
dinindən dönüb
canından bezib özünü dənizə atıb bu Ada
dalğaların qoynuna...



Burda ulduzlar
Yuxudan ötrü ölür gecələr.
Arabasız küçələr
Darıxır səhərə qədər...

Dənizin dibindən Günəş çıxır,
Göylərin kölgəsi düşür sulara.
Dənizə baxanın qamaşır gözü,
Adamlar səhv salır gecə gündüzü.

Tanrı ailəsindəndi, külək
Vətəni Xəzər,
İki qolu var
Biri Xəzri, biri Gilavar
Birisi saç yolur - gözü quş səpir,
o biri küf asır, nəğmə oxuyur.

Yenə külək əsəcək
Yenə də fırtına var,
gəmilərin fit səsi
Çilovda lövbər atar.

Yenə külək, yenə külək
Yenə külək əsəcək,
Ləpələrin mahnısı
yenə kökdən düşəcək.

Dönür nöqtə-nöqtə qara buludlar,
dəyirman boğazı - dumanlı hava
Tanrıya daha yaxın,
Ölümü daha doğma
Alminum quş uçur göyün üzündə.

Sos, Sos, Sos
Atam, balıqlar ölür,
Adam, balıqlar ölür.

Ölür, sürü-sürü ölür balıqlar.
Ölür, kürü-kürü ölür balıqlar,
Ölür, diri-diri ölr balıqlar.

Ölür iri gözlü balıqlar ölür,
Ölür, diri gözlü balıqlar ölür.
O dilsiz, ağızsız balıqlar ölür

Ölür, qara balıq, ölür ağ balıq
Ölür, çapaq balıq
Ölür, şah balıq.
Balıq allahının gözündər iraq
Ölür, şamaykalar ya da sağ balıq
Balıqlar ölür
çırpınır tilovda
çırpınır torda.

Ölür, Abşeronda
Ölür, Nargində,
Ölür, Qum adasında,
ölür Çilovda.

Minir cin atına Xəzri, Gilavar
Çapdırır atını elədən-belə
dişini qıcıyır,
dalğa kor olur
balıqlar ölür

İşıqdan yayınır, dırnağa düşür,
tilovdan yayınır, qarmağa düşür.
dərinə baş vurur, tuzağa düşür,
qisməti taleyi yenə tor olur,
balıqlar ölür.

irisi xırdanı yeyir sürüdə,
təklənir üşənir elə kürüdə,
azalır Arazda, azalır Kürdə,
quruyur sular da
hava gor olur,
balıqlar ölür,
yazıqlar ölür.

Yaxşılıq eliyin atın dəryaya,
qoyun bu yaxşılıq sizə yazılsın.
Dəniz balıqları alsın qoynuna,
iri gözlərindən öpsün doyunca.

Qayığı var, bərəsi var,
Abşeronu-pərisi var.
Gilavarı, Xəzrisi var
Bu dənizin…

Əlvida, göy qurşağı,
Əlvida, gecə gözlüm,
Əlvida, dibsiz dəniz.
Əlvida, yaşıl yosunlar,
Əlvida, planktonlar,
Əlvida, bentoslar.
Əlvida, albinos daşlar,
dilsiz ağızsız başlar,
Əlvida, qəşəng balıqlar.
Əlvida qaraçı quşlar,
Əlvida yalançı çömçöquyruqlar,
Əlvida su pərisi…
Əlvida…

